**Yanvar-aprel aylarında Vergilər Nazirliyinin xətti ilə büdcəyə 2 milyard 237 milyon manat vəsait daxil olub**

2012-ci ilin ilk dörd ayında Vergilər Nazirliyi tərəfindən dövlət büdcəsinə vergi daxilolmalarının həcmi 2 milyard 236 milyon 977,1 min manat təşkil etmişdir. Vergi daxilolmalarının 46,2%-i mənfəət vergisinin, 20,9%-i əlavə dəyər vergisinin, 10,8%-i fiziki şəxslərin gəlir vergisinin, 6,4%-i aksizlərin, 15,7%-i isə digər vergilərin payına düşür.

Qeyri neft-qaz sektoru üzrə 1 milyard 114,7 milyon manat vəsait daxil olmuşdur ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 17,3% çoxdur.

Yanvar-aprel aylarında respublika üzrə qeydiyyatdan keçmiş vergi ödəyicilərinin ümumi sayı 26 min 597, 2011-ci ilin iyul ayının 1-dən cari ilin may ayının 1-dək elektron qaydada qeydiyyata alınmış fiziki şəxslərin sayı 26 min 416 olmuşdur. 1 may 2012-ci il tarixə qeydiyyatda olan vergi ödəyicilərinin ümumi sayı 443.592 olmuşdur.

2012-ci ilin yanvar-aprel ayları ərzində respublika üzrə elektron formada göndərilmiş bəyannamələrin xüsusi çəkisi 91,7% təşkil etmişdir.